*UOT 159.9*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-3319-7466*
*E-mail: amiraliyeva_i@mail.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).75-77

# ZƏLİMXAN YAQUB, RAMİZ RÖVŞƏN, NÜSRƏT KƏSƏMƏNLİ: XOCALI HARAYI (şagirdlərlə söhbət)

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике,*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

# ЗАЛИМХАН ЯГУБ, РАМИЗ РОВШАН, НУСРЕТ КАСЕМАНЛИ: ЗОВ ХОДЖАЛЫ (беседа с учениками)

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy,*
*leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan*

# ZALIMKHAN YAGUB, RAMIZ ROVSHAN, NUSRAT KASAMANLY: CALL OF KHOJALY (conversation with pupils)

**Xülasə**. Məqalədə 1992 -ci ilin fevralında baş verən Xocalı soyqırımından danışılır. Bir qış gecəsi, qarlı-şaxtalı bir vaxtda ermənilərin Xocalıya hücum etmələri, uşaq, qoca, qadın bilmədən onları öldürmələri qeyd olunur. Eyni zamanda məqalədə şairlərdən Zəlimxan Yaqubun, Ramiz Rövşənin və Nüsrət Kəsəmənlinin Xocalı soyqırımına həsr etdiyi şeirlər verilir. Şagirdlərlə onların müzakirəsi keçirilir.
***Açar sözlər**: Xocalı, soyqırım, erməni-faşist, qış gecəsi, Zəfər günü*

**Аннотация.** В статье говорится о Ходжалинском геноциде произощедшем в феврале 1992 года. Рассказывается о том, как в холодную снежную ночь вооруженные силы Армении атаковали Ходжалы и безжалостно убивали мирных жителей, невзирая на детей, женщин и стариков. Кроме того, упоминается что в статье представлены стихи, посвященные Ходжалинскому геноциду, в том числе произведения Залимхана Ягуба, Рамиза Ровшана и Нусрета Касеманлы, и описывается обсуждение этих стихотворений со школьниками.
***Ключевые слова:** Ходжалы, геноцид, армяно-фашист, зимняя ночь, День Победы*

**Abstract**. The article talks about the Khojaly genocide that took place in February 1992. It describes how on a cold and snowy winter night, Armenian armed forces attacked Khojaly and mercilessly killed civilians, sparing neither children, women, nor the elderly. In addition, the article mentions poems dedicated to the Khojaly genocide, including works by Zalimkhan Yagub, Ramiz Rovshan and Nusret Kasemanli, and notes that these poems are discussed with students.
***Keywords:** Khojaly, genocide, Armenian fascist, winter night, Victory Day*

Erməni-faşist işğalçıları Yer üzünün görmədiyi bir vəhşiliyi törətdi: Xocalı faciəsini yaşatdı. Havadarlarının köməyi, dəstəyi ilə. Bir Azərbaycan şəhəri yerlə-yeksən oldu. Şəhər sakinləri bəşəriyyətin hələ indiyə qədər görmədiyi, görə bilməyəcəyi son dərəcə qəddarlıqla, vəhşiliklə qətlə yetirildi, onlara olmazın əziyyət verdilər. Uşağa, qocaya, qıza, gəlinə, cavana aman vermədən.

Bu qanlı soyqırım 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verdi. Erməni ordusu Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə

bu qanlı faciəni törətdi. Oxuyuruq: "Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib.[2] Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil" (1).

Bizim borcumuz təhsilalanları – şagirdlərimizi və tələbələrimizi Xocalı soyqırımı və bu faciəyə bais olanlarla tanış etməkdir. Soyqırımdan artıq 33 il ötür. Lakin hər dəfə faciə anıldıqca ürəklərimiz qan ağlayır.

Azərbaycan yazıçı və şairləri bəzi əsərlərini Xocalı soyqırımına həsr etmişlər. Bədii filmlər və televiziya tamaşaları və filmləri də vardır. Yazıçı Ağarəhim ssenarisi, xalq artisti Mərahim Fərzəlibəylinin quruluşçu rejissorluğu ilə hələ ötən əsrin 90-cı illərində "Canavar balası" və "Qırmızı qar"; sonralar Vaqif Mustafayevin ssenarisi, Ceyhun Mirzəyevin quruluşçu rejissorluğu ilə "Fəryad", Aqil Abbasın ssenarisi, Elxan Cəfərovun quruluşçu rejissorluğu ilə "Dolu" bədii filmləri çəkildi.

Yazıçı Akif Abbasov "Aldanma sözlərə" romanını yazdı.

Bu məqalədə Azərbaycanın üç görkəmli şairinin "Xocalı"ya həsr etdikləri şeirləri üzərində dayanacağıq.

Xalq şairi Zəlimxan Yaqub "Xocalım, ay xocalım", "Layla, Xocalım, layla", "Sizi qınamıram" və s. şeirlərin müəllifidir. "Xocalım, ay xocalım" şeirində deyilir:

*Quruyub cadar olmuş dodaqlara nə deyim?*
*Kəsilmiş biləklərə, barmaqlara nə deyim?*
*Qar içində buz olmuş ayaqlara nə deyim?*
*Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?*
*Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,*
*Xocalım, ay Xocalım! (2)*

Düşmən o qədər məkrli, o qədər qəddar və amansızdır ki, öldürdükləri insanların başlarını kəsmiş, başlarının dərisini soymuş, ovub gözlərini çıxarmışdılar.

Ona görə də şair "Kəsilmiş biləklərə, barmaqlara nə deyim?" söyləyərək yanıb yaxılır. Şair şerin başqa bəndində aşağıdakı suala cavab axtarır: "Amansız cəmiyyətdə sənə nə aman tapım?" Bu fikir, təsadüfi irəli sürülməmişdir. O zamanlar biz SSRİ deyilən bir imperiyanın tərkibində idik. Biz də, ermənilər də SSRİ vətəndaşları sayılırdılar. Ermənistan Respublikasının Ali Soveti əzəli torpağımız, yurdumuz olan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı qanuna sığmayan, özbaşına qərar çıxarmışdılar. SSRİ rəhbərliyi, onun başında duran M. Qorbaçov erməniləri cəzalandırmaq əvəzinə onlara arxa duraraq, əvvəlcə 20 yanvar, sonra da Xocalı soyqırımını təşkil etmişdi.

Beləliklə, Sovet rəhbərliyi SSRİ ordusunu düşmənimizin-ermənilərin sərəncamına verərək Xocalıların üstünə göndərmişdi. Beləliklə, azərbaycanlılara, dinc, silahsız insanlara divan tutuldu.

Zəlimxan Yaqub "Layla, Xocalım, layla" şerinə göz yaşlarını qataraq yazırdı:

*Duz basdılar yarana, Layla, Xocalım, layla.*
*Düşdün güllə barana, Layla, Xocalım, layla.*
*Namərdi kim çağırdı? Göydən ölüm yağırdı.*
*Dilnən demək ağırdı Layla, Xocalım, layla.*
*Daş üstə daşmı qaldı, Salamat başmı qaldı,*
*Gözümdə yaşmı qaldı, Layla, Xocalım, layla (3).*

Gecənin bir aləmi, bir çoxu yatmış vəziyyətdə olan insanlar ağır texnika (tanklar və s.) və digər silahlarla güllə baran edildilər.

Tələbələr xalq şairinin digər şeirini ("Sizi qınamıram") diqqət mərkəzinə gətirirlər:

Tələbə Sevinc: Şeir belə başlayır:

*Bu əsəri mənə Xocalı dərdi,*
*Şuşa əzabı, Laçın ağrıları yazdırıb.*
*Sizi qınamıram ay Xocalılar,*
*Sizin başınızda şimşək oynadı,*
*Sizin başınızda dumanlar oldu (4).*

Tələbə: Məlum olduğu kimi, Nəinki Xocalı, sonralar həmçinin Azərbaycanın Kəlbəcər, Laçın, Şuşa, Cəbrayıl, Ağdam, Füzulu, Zəngilan, Qubadlı da Xocalının taleyini yaşadı. Həmin rayonlardan yüzlərlə adam amansızlıqla öldürüldü, əsir götürüldü.

Digər tələbə Ramiz Rovşənə müraciət edir. Xalq şairinin "Xocalı yası" şeiri səslənir. Tələbələrin hərəsi şeirdən bir bəndi ifa edir. Nümunə:

*Xocalı!*
*Ahım göyə ucalı!*
*Qanına qəltan oldun,*
*Həm uşaqlı- qocalı!*

*Gör necədi halımız,*
*Erməni əlindədi dövlətimiz, varımız!*
*Erməni əlindədi meşəmiz, həm dağımız!*
*İnləyir "Qisas!" – deyir yaralı torpağımız!*
*Xocalı dağlarında ayağı donana bax!*
*Od-alov qarsalayıb ciyəri yanana bax!*
*Erməni "dığaları" güllləbaran eylədi,*
*Xocalı tək obanı eli viran eylədi!*
*Asimana ucalır anaların naləsi!*
*Süngü-bıçaq altında onun bircə körpəsi,*
*Dəlmə-deşik bədənlər, soyulmuş qafa tası,*
*Yaralardan qan axır, əridir qarı, buzu! (5)*

Şair yaxşı mənalandırıb: Yaralardan axan qan qarı, buzu əridir. Diqqət edək:

"Yaralardan qan axır, əridir qarı, buzu!"

Tələbələr bu dəfə Nüsrət Kəsəmənliyə müraciət edirlər. Şairin "Xocalı" şeri ifa edilir. Nümunə:

*Tanklar qan üstündən yeridi,*
*Neçə can üstündən yeridi.*
*Körpələr qaldı dəmir ayaqlar altında,*
*İmdad istəyən böyüklərə*
*güvənmədilər daha.*

Şair özünə sual verir:

*Güllələdilər Babəkin qılıncını*
*Koroğlunun atını,*
*Güllələri qaytarmadı*
*Cavanşirin qalxanı.*
*Əzdilər yıxılanı,*
*Vurdular qalxanı.*
*Hanı bu yurdun*
*Nəbisi, Səttarxanı?! (6)*

Şair köməyə Babəki, Koroğlunu, Cavanşiri, Nəbini, Səttarxanı çağırır.

Nəticə olaraq bildiririk ki, biz düşmənə qalib gəlmişik, 44 günlük Vətən Müharibəsi nəticəsində şəhər və rayonlarınız, kəndlərimiz düşməndən azad oldu. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi. Düşmən silahlarını qoyaraq qaçdı. Sonralar antiterror əməliyyatı nəticəsində yerdə qalan ərazilərimiz, o cümlədən Xocalı azad edildi. Düşmən layiqli cəzasını aldı.

Son söz olaraq deyirik ki, təhsilalanlar – şagirdlərimiz, tələbələr başımıza gətirilən oyunlardan, düşmənini məkrli siyasətindən xəbərdar olmalı, eyni zamanda Vətənimizin müdafiəsinə həmişə hazır olmalıdırlar.

**Problemin aktuallığı**. Xocalı faciəsindən 33 il keçir. Həmin soyqırımın yada salınması, düşmənə nifrət hissinin artırılması baxımından mövzu aktualdır.

**Problemin yeniliyi**. Azərbaycan şairlərinin Xocalı harayı diqqət mərkəzinə gətirilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat:**


1. Xocalı soyqırımı. https://az.wikipedia.org/wiki/Xocal%C4%B1_soyq%C4%B1r%C4%B1m%C4%B1
2. Zəlimxan Yaqub. Xocalım ay Xocalım https://portal.azertag.az/az/node/12019
3. ZəlimxanYaqub. Layla, Xocalım, layla. Chrome-extension: //efaidnbmnnnibpcajpcglclefindmkaj/https://clb.az/dosyalar/931pdf
4. Zəlimxan Yaqub. Sizi qınamıram https://www.facebook.com/permalink.php/?story_fbid=859649324521019&id=479519925867296
5. Ramiz Rovsen. Xocalı yası. https://www.facebook.com/permalink.php/?story_fbid=431588953588458&id=245947545485934
6. Nüsrət Kəsəmənli. Xocalı https://www.facebook.com/permalink.php/?story_fbid=431401230273897&id=245947545485934&locale=az_AZ


**Redaksiyaya daxil olub**: 20.02.2025.